

12 QƏNAƏTLİ İSTEHLAK VƏ İSTEHSAL

# QƏNAƏTLİ İSTEHLAK VƏ İSTEHSAL: BU NƏ ÜÇÜN VACİBDİR?

## Burada məqsəd nədir?

Dayanıqlı istehlak və istehsalın təmin edilməsidir.

## Nə üçün?

Növbəti iyirmi ildə dünya əhalisinin əksəriyyətinin orta sinif zümrəsinə qatılacağı gözlənilir.

Bu, insanların rifahı üçün müsbət haldır, lakin tükənməkdə olan təbii resurslara tələbatı artıracaqdır. Əgər istehlak və istehsal davranışımızda dəyişikliklər etməsək, ətraf mühitə amansız zərbə vurulacaq.

**Əgər 2050-ci ilədək dünya əhalisinin sayı 9,6 milyarda çatsa, insanların indiki həyat tərzini təmin etmək üçün 3 planet lazım olacaq.**

## Dəyişikliyə ehtiyacı olan istehlak və istehsal davranışları hansılardır?

İstehlakın bir çox aspektləri var ki, kiçik dəyişikliklərlə bütün cəmiyyətə böyük təsir göstərə bilər. Məsələn, yükdaşıma nəqliyyatının pis təşkili və məhsul yığımı xüsusiyyətləri baxımından istehsal olunmuş ərzağın üçdə biri – bu isə təxminən 1 trilyon dollar dəyərində 1,3 milyard ton ərzaq deməkdir - istehsalçıların və pərakəndə satışla məşğul olan şəxslərin anbarlarında məhv olur. Bu problem sahibkarlar tərəfindən həll olunmalıdır.

İstehlakçılara gəldikdə isə mənzil təsərrüfatları qlobal enerjinin 29 faizini istifadə edir, karbon ($CO_2$) emissiyasının 21 faizinə səbəb olur. Əgər bütün insanlar elektrik enerjisinə qənaət edən lampalardan istifadə etsələr, bir ildə 120 milyard ABŞ dollarına qənaət etmək mümkün olar. Suyun çirklənməsi də dayanıqlı həll yollarının tapılmasını tələb edən ciddi məsələdir. Biz suyu çaylarda və göllərdə gedən təbii saflaşdırma və təmizləmə prosesindən daha sürətlə çirkləndiririk.

## Sahibkar kimi bu işə necə kömək edə bilərəm?

Dayanıqlı istehlak və istehsalın təmin edilməsi üçün yeni həll yollarının müəyyən edilməsi sahibkarların maraqlarındadır. Məhsulların və biznes xidmətlərinin ətraf mühitə və sosial cəmiyyətə təsirinin, həmçinin, məhsul dövriyyəsi və onlardan istifadənin təsirinin daha yaxşı başa düşülməsinə ehtiyac duyulur. Dəyər zəncirində hansı vacib nöqtələrə müdaxilənin bütövlükdə sistemin ətraf mühit və sosial nəticələrini yaxşılaşdırmaq üçün daha səmərəli olacağını müəyyənləşdirmək birinci vacib addımdır. Müəssisələr insanların dayanıqlı həyat ilə təmin edilməsində, mənfi nəticələrin azaldılmasında və daha yaxşı həyat səviyyəsinə çatmasında innovativ imkanlardan istifadə etməklə yeni həll yollarını müəyyənləşdirə bilərlər.

## İstehlakçı kimi necə kömək edə bilərəm?

Kömək etmək üçün iki əsas yol var:

1. Tullantıları azaltmaq; 2. Alış zamanı diqqətli olmaq, imkan daxilində daha dayanıqlı məhsullar seçmək.

Tullantıların azaldılması bir sıra yollarla həyata keçirilə bilər: artıq qidanı atmamaqdan başlamış okeanın əsas çirkləndiricilərindən biri olan plastik istehlakını azaltmağa qədər.Sizin gündəlik edə biləcəyiniz yaxşı işlər: çox istifadəyə yararlı torbalardan istifadə etmək, plastik çubuqlardan imtina etmək, plastik qabları yenidən emala göndərmək. Aldığımız məhsullar haqqında məlumatlılığımız da kömək edə bilər. Məsələn, tekstil sənayesi kənd təsərrüfatından sonra içməli suyun ikinci əsas çirkləndiricisidir və bir çox geyim şirkətləri inkişaf etməkdə olan ölkələrdə tekstil işçilərini istismar edir.Dayanıqlı və yerli istehsalçılardan məhsul almaqla, eləcə də müəsissələrin dayanıqlı təcrübələrə keçməsinə təsir etməklə fərq yaratmaq olar.

Sizin edə biləcəyiniz başqa tədbirlərlə aşağıdakı keçiddə tanış ola bilərsiniz:

http://www.un.org/sustainabledevelopment/ takeaction

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ
DÜNYAMIZI DƏYİŞMƏK ÜÇÜN 17 MƏQSƏD